# 7. Olum, yoxsa ölüm...

Olum, yoxsa ölüm... Təbii ki, yeni dünya kəşf etmirik. Məşhur sualdır. Artıq bu sualın dünyaya ünvanlandığı zamandan neçə yüz il keçib. Ancaq sual yenə də müasir olaraq qalır. Görünür, insan övladı nə qədər qarşısıalınmaz hisslərlə yaşayacaqsa, bu sual da bir o qədər aktual olaraq qalacaq. ... və görünür, Hamlet həmişə bizim müasirimiz olacaq. İstər, yeni dünyamızın qadın, istərsə də kişi obrazlarında o yenə özünü göstərəcək. Bizimlə birgə, hisslərimizlə, duyğularımızla birgə gələcəyimizə gedəcək.

Yerin təbiətində, bir az da dəqiqləşdirsək, üz qabığında kataklizmlər müəyyən dəyişikliklər yaradır. Artıq qeyd etdiyimiz kimi Yerin üz qabığı vulkan təlatümləri qarşısında öz görkəmini saxlamaq sarıdan acizdir. Ancaq cəmiyyətin həyatında mənəvi dəyişilmələr bir çox hallarda faciələr yaradır. Daha cəmiyyətin həyatı dağ-dərə deyil ki, bu dəyişilmələr xüsusi görüntü ilə müşahidə olunsun.

Sevgi hissləri insanın bütün enerjisini, gücünü səfərbər edir və iki istiqamətdə insanın ruhuna təsir göstərir: Əgər sevgi hissləri qarşılıqlı məhəbbətə çevrilirsə, onda insanın mənəvi potensialı bütövlükdə üzə çıxır. İnsan daxilində ehtiyatda qalan enerjini faydalı iş əmsalına çevrilir. Həyat daha gözəl görünür. İnsan sanki gələcəyə uçmaq üçün qanad axtarır. İnsan hara baxırsa, həyat ona gözəl görünür. Təbiət öz gözəlliyini insanda bitirdiyi kimi, insan da öz təbiətinin ahəngdar axarını təbiətlə tamamlayır.

Amma məhəbbət qarşılıqlı deyilsə, sevgi qarşı tərəfin mənəvi harmoniyası ilə öz istinadını tapmırsa, onda sevgi faciəyə çevrilir. Ölüm qarabaqara öz qəhrəmanının arxasınca gəzir. Göründüyü kimi biz Ulduz Qasımın *"Tələbə gündəliyi"* əsərini izlədikcə iztirabların daha kəskinləşən məqamlarına doğru gedən düşüncə axarına düşürük.

Sitarə, deyəsən, çətin durumda olduğunu anlamaqdadır. Hətta onun təbiətindəki qəribəliklər də bu məqamlarda kara gəlmir. Axı vaxtı ilə ona müəllimləri *"Çalıquşu"* deyə müraciət edirdilər. Çalıquşu isə Rəşad Nuri Güntəkinin məşhur eyniadlı romanının qəhrəmanıdır. Çalıquşu ən iztirablı sevgi yollarını keçir. *"Siyah yıldızlar"* əfsanəsinin motivi *"Çalıquşu"*nu qarabaqara izləyir.

Sitarə də sanki öz sevgisinin məhrəmliyini qorumaq üçün zahiri təmkinini bütün gücü ilə qoruyur. Ancaq bu zahiri qoruma effekti onun daxili aləminə münasibətdə gücsüzdür. Elə bu səbəbdən də Sitarə öz hisslərini kiməsə də danışa bilmir. Öz dərdini kimsə ilə bölüşə bilmir. Hətta özünün kirayədə qaldığı evdə rəfiqəsi belə onu ancaq zahirən müşahidə edə bilir. Daxili aləminə nüfuz edə bilmir. Bu mənada Sitarə son dərəcə möhkəm qızdır. Güclüdür. Baxmayaraq ki, o, sevginin gətirdiyi tufanlı dalğalar qabağında yüngül yelkənli gəmi kimi çalxalanmaqdadır.

Onun gələcək haqqında da, hətta öz sevgilisinə münasibətdə də maraqlı müşahidələri, inamı ilə ziddiyyət təşkil edən qənaətləri də üzə çıxır. Hətta belə məqamlarda da o öz sevgilisini qətiyyən qınamaq fikrində deyil. Həyat və cəmiyyət, dünya, tale, yaşamaq haqqında düşüncələri onu bir an da olsun tərk etmir. O yaxşı bilir ki, bu dünyadakı həyatı asanlıqla heç nəyə dəyişmək olmaz. Ancaq sevgidən yarına bilmirsə, sevgidən təminatını ala bilmirsə, onda bu dünya da onun üçün öz əhəmiyyətini itirmiş olur. Zənnimcə, bu məqamda Sitarənin düşüncələri oxucular üçün də maraqlı olar ki, onlar da görsünlər; Sitarə olum və ölüm arasında necə çırpınırdı: *"Bilirdim ki, nə vaxtsa məni başa düşməyəcək. Bax onda məni təkraredilməz ləyaqət mücəssəməsi adlandıran oğlanın yazdığı sözə heyifi gələ bilər. Amma görəsən, o məni bütünlüklə başa düşsə necə? Bəlkə bunların hamısı mənə belə gəlirdi. Bax ona görə o dəftəri cırdım. Onu cırdığıma görə düz iki gün də ağladım. Axı o sözləri - həmişə ürəyimdə saxladığım sözləri - mənə ən əziz dostlarım, yoldaşlarım yazmışdı. Onların özləri kimi səmimi sözləri məni niyə bu qədər yandırırdı? O sözlər indi ölmüşdümü? Qəribədir, ölən insan, ölən söz, ölən məhəbbət, ölən şeir - görəsən, bunların hansı dəhşətlidir? Ölən məhəbbətmi? Yəni dünyada istək də ölür? İstək ölə bilərmi?! Yox, istək ölürsə, deməli, səni də özüylə öldürür, səni də özüylə aparır. Quru nəfəsin qalır. Yəni nəfəsin qalırmı? Bilmirəm, bilmirəm... Amma doğrudan o dostlarım kimi onların sözləri də həmişə qəlbimdədir".* Hər şey yerindədir, hələ ki, Sitarə də həyatdan əlini üzməyib, hələ ki, iradəsi onu qorumaqdadır. Hələ ki, olum və ölüm arasındakı çırpıntılarda o, olumun tərəfindədir. Ona görə ki, hələ ümidlər var, hələ inamlar var və demək, yaşamaq ehtimalı yenə kifayət qədər güclüdür.

Sitarə sevgilisini ona görə hər an yanında istəmir ki, o, Sitarə ilə xoş danışsın, gülsün. Əgər insani, cinsəl istəklərdən danışırıqsa, onu öpsün, oxşasın... Yox, Sitarə heç bunları da istəmir. Sitarə sadəcə istəyir ki, bu adam yaxında olsun. Özünün sükutu ilə Sitarənin mənəvi mühitindəki harmoniyanı təmin etsin: *"İstəmirəm dinib-danışsın birdən. Elə sükutu bəsdir mənə. Elə ömrü boyu onun beləcə susmasına oturub qulaq asaram, baxaram. Əlimdən tutmasın, üzümə də baxmasın, gözünün ucu ilə də. Amma həmişə yanımda olsun, nəfəsini duyum, eşidim.*

*Sevə bilməz kimsə səni,*
*Mənim sevdiyim kadar.*
*Sevdiyim sən olmasan,*
*Yaşamaq nəyə yarar?...*

*Nilufərin ən çox sevdiyim mahnılarındandır bu sözlər".* Türk müğənnisi Nilufərin mahnısı, zənnimizcə, burada təsadüfi xatırlanmır. Sevənlərin ruhunu oxşayan səsi, oxuduğu sözlər insanı pak sevgiyə səsləyir, sağlam sevgiyə səsləyir. Hər hansı bir sevən gənc, sevgi iztirablarını ruhunda daşıyan gənc onun səsini eşidəndə sanki öz sevgi iztirablarını təzədən yaşayır. Hər hansı bir söz və yaxud da səs insana həyat enerjisi vermirsə, onun heç bir dəyəri olmaz. Məhz Sitarə də bu məqamda Nilufərin səsini və oxuduğu mahnı mətnini təsadüfi xatırlamırdı.

Sitarə yaxşı bilir ki, heç bir insan digərinin olduğu kimi təkrarı deyil. Hərənin özünə görə həyat mühakiməsi, düşüncə tərzi var. Onun sevdiyi oğlan da yerinə görə, məqamına görə müstəqil fikir yürüdə bilən bir gəncdir. Hətta həmin gəncin Sitarənin durumuna uyğun dediyi sözlər, hətta onun düşüncəsinə uyğun olaraq kinayəli, kinayəsiz münasibətləri belə Sitarədə heç bir mənfi emosiya yaratmır. Sitarə belə düşünür ki, o nə deyirsə, yəqin ki, doğru deyir.

Sitarənin düşüncələrinin məntiqi axarı bunu diktə edir ki, ali məqam insan, yəni onun sevdiyi səhv edə bilməz.

Hətta Sitarə sevdiyi oğlanı tərk etmiş qızın özünü günahlandırmaqdan belə çəkinmir. Ona elə gəlir ki, o qızın ürəyi lap elə daşdandır. Axı belə bir oğlanı necə incitmək olar? Bir sözlə, Nilufər sanki öz nəğmələri ilə bu gənc müğənninin tərənnüm edir, özü də Sitarənin dilindən.

Nilufər parlaq, göy gözləri ilə işıq saçan, son dərəcə gözəl bir müğənnidir. Aşiqinin könlünü uzaqdan-uzağa dağlamaq gücündədir. Hətta bəzi məqamlarda Sitarə sanki Nilufəri xatırlamaqla özünü onunla müqayisə edir.

Beləliklə, dünya və həyat düşüncələri Sitarəni tərk etmir. Sitarənin ən ağırlı məqamlarda, ən iztirablı anlarda belə iradəsi davamlılıq gücünü qoruyub-saxlayır.

Sitarə yeri gələndə özünü günahlandırmaqdan belə çəkinmir. Axtarışlarında inadlıdır. Həyatının hər bir anını gözlərinin önündən keçirir. Düşünür ki, bəlkə bu sevgi məsələsində ifrata varır. Əgər ifrata varırsa, niyə ətrafdan bir adam ona yanaşıb gözlə görülə biləcək bu ifratı onun diqqətinə çatdırmır? Demək, cəmiyyətdə insan nə qədər toplumun içərisində olursa, olsun, o bir fərd olaraq tənhadır. Başqa bir kimsə onun daxili dünyasını görmək gücündə deyil. Ona görə Sitarə başqalarını qınasa da, heç özünü də axıracan qınamaq istəmir: *"Əgər doğrudan da mən günahkaramsa, niyə özünü mənə ən yaxın dost adlandıranlar günahımı deyə bilmirlər? Niyə kömək əlini əsirgəyirlər məndən? Bunların hamısını düşünəndə təkcə ürəyimdə onun haqqında fikirləşirəm. Gözümün qabağından getmir. Yəni doğrudan o, bu qədər istəyi itirmək istəyir?.. Qız hardan təsəlli üçünmü, ürəyinə gəldiyi üçünmü deyir: "Haçansa, o da səni istəyəcək. Onsuz da bir-birini istəyənlər elə əvvəlcə yaxın dost olurlar" - deyir. Doğrudan da, dostluq olmayan yerdə məhəbbət də olmaz, daha doğrusu, ola bilməz! Görəsən, o bilmirmi mənə nə qədər lazımdır? Ömürlük, həmişəlik. Onun köməyi lazımdır mənə! Bəs bilirsə niyə əsirgəyir? Niyə? Bəlkə ona görə ki, yaxşı tanımır məni? Atam, anam kimdir, necədir ailəmiz? Məgər bunların istəyə dəxli varmı? Bəlkə hansısa cəhətim xoşuna gəlmir? Axı doğrudan da belədirsə, mən o cəhəti sılıb atmağa hazıram. Bəlkə mənim atamın aşıb-daşan var-dövləti yoxdur, özüm gözəl deyiləm. Bəlkə də...".* Bir sözlə, Sitarə şübhələr içərisində qovrulur. Doğrudur, tez-tez istək ifadəsini, istək anlamını diqqətə çəkir. O yaxşı bilir ki, istəkdən sonra sevgi gəlir. Sevgidən sonra məhəbbət gəlir, məhəbbətdən sonra eşq gəlir. Əgər Füzuli eşq mərtəbəsinə çatıbsa, onda hər bir oxucu da özünün bu saf, səmimi, insani duyğularının hansı mərtəbədə olduğunu fikirləşə bilər. Hər halda Sitarə özününü düşüncəsinə görə istək mərhələsindədir. Zənnimizcə, bu onun şifahi nitqində bəlidir. Çünki onun duyğular artıq istək mərhələsinə sığmır, sevginin ən təlatümlü vaxtlarını yaşamaqdadır. Şübhəsiz, bu sevgi öz qarşılığını taparsa, tezliklə, məhəbbətə, insanı ali məqam səviyyəyə qaldıracaq məhəbbətə çevrilməlidir.

Günlər isə sürətlə ötüb-keçməkdədir. Artıq gündəlikdə qoyulan tarixlərə istinadən biz sevgi romanının başlandığı tarixdən üzü bəri keçən vaxtı 40 günə çataçatda görməkdəyik.

Sitarənin öz sevgisindən barınma məqamları da var. Bu sevdiyinin əllərini öz əllərinə aldığı məqamla bağlıdır. Həqiqətən böyük sevgi axarında yaşayan insan üçün, sən demə, təkcə əlin təması da uca xoşbəxtlik haqqında qədərincə təəssürat yarada bilərmiş.

Bəlkə də Sitarəni olum və ölüm qarşılaşmasında xilas edən, onu həyata tərəf çəkən cəhət də elə onun öz sevgilisindən aldığı bu nadir, azömürlü təmaslardır. Bu təmaslardan biri çox orijinaldır və hər bir zaman üçün gənclərin həyatında yeni təzahür kimi özünü göstərə bilər. Ona görə də Sitarənin dünyasında yeganə olan insanın əllərindən aldığı təmasın dəyərini yəqin ki, gənclərimiz də hiss edə, duya bilər: *"Bir dəfə bizdə dedi ki, gör əllərim nə gündədir? O gündən onun əlləri gözümdə ucaldı elə bil, gözəlləşdi. O günü, elə o sözləri deyən günü əl görüşəndə mənə - əllərin nə soyuqdur - dedi. Bax elə onda onun əllərinin istisi ilə əllərim isindi. Ona görə də onun əlləri də mənim üçün doğmadır, əzizdir. Bəlkə haçansa bu sözlərimi kimsə oxudu, bilmirəm, onda bütün bunları başa düşən olacaqmı? Bəlkə də hə, bəlkə də yox. Fərqi yoxdur, bundan sonra isə heç bir atəş, heç bir hərarət isidə bilməz əllərimi...".* Hər bir real həyat adamı elə bu əllərin istisi ilə sonrakı mərhələnin asanlıqla başlandığını iddia edə bilər. Ancaq insan hisslərinin elə bir məqamı var ki, o səviyyədə, o məqamda şəhvaniyyət sıfır həddində olur. Qəlbən sevgi, ruhən sevgi cinsəl istəyi rədd edir.

Sitarə sevdiyi oğlanın mühitini, demək olar ki, ardıcıl və düşüncəli tərzdə izləmir; yəni planlı izləmir. Amma hiss edir ki, sevdiyi oğlanı əhatə edən mühitin özü də onun adına layiq mühitdir.

Sitarə həyat haqqında, cəmiyyət haqqında düşünə bilir, müqayisələr apara bilir. Başqaları ilə sevdiyi oğlanı da müqayisə edə bilir: *"Qəribədir, elə gözəl, yaraşıqlı adamlar olur ki, heç bir həftə də yaşamır qəlbində. Elə də adi adamlar olur ki, qəlbində yaşa dolur, yaşayır səninlə. Heç özün də bilmirsən niyə unuda bilmirsən onu?..".* Sitarənin bu düşüncələri onun kifayət qədər ayıq adam olduğunu da göstərir. Yəni o, insanları tanımaq gücündədir, sadəlövh deyil, yaraşığa, imkana aldanan deyil. Demək, buradan belə bir nəticə çıxır ki, Sitarə sevdiyi oğlanın timsalında özünün idealını görür. Bütün həsrətləri ilə daşıdığı iztirabların sonunu məhz həmin oğlanla bitəcəyinə inanır. Elə bu səbəbdən də Sitarənin real həyat düşüncələri göstərir ki, o yalnız sevgi intuisiyası ilə seçsə belə həmin gəncin kimliyinə axıracan inanır. Hətta qardaşlarının, onu istəyən, adını çəkən, lap fiziki cəhətdən güclü olan adamlara təzyiqlərini də yada salır. Onu da diqqətə çəkir ki, qardaşlarının yanında cılız görünən bu müğənni oğlana onun qardaşları heç nə deyə bilməzdi. Çünki bu gənc müğənniyə o bağlıdır. Onunla birgədir, demək, o müğənninin gücü ikiqat artıqdır.

Bir sözlə, olum, yoxsa ölüm - əbədi sualdır. Ancaq ona görə həyat, cəmiyyət davam edir ki, insanlar oluma inanır, ölümə yox.

İnsan cismən ölə bilər, cəmiyyəti isə yaşadan inamlara söykənişlə təminatı olan olumdur.

***21.06.2022***